# Milli Məclisin Sədri Sahibə Qafarova İtaliya Respublikasına rəsmi səfərə gedib

**Yanvarın 21-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti İtaliya Respublikasına rəsmi səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə Roma şəhərinin "Ciampino" aeroportunda nümayəndə heyətini İtaliya Deputatlar Palatası Xarici əlaqələr komissiyasının üzvü Naike Qruppioni, Azərbaycanın bu ölkədəki səfiri Rəşad Aslanov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarovanın bir sıra görüşləri nəzərdə tutulur.

***"Azərbaycan"***




Azərbaycan.- 2025.- 22 yanvar (№ 13).- S.5.